


# BAKIDA MÜHASİBLƏRİN VƏ AUDİTORLARIN 4-CÜ AVRASİYA FORUMU KEÇİRİLDİ

Azərbaycan Professional Maliyyə Menecerləri Assosiasiyası Mühasiblərin və Auditorların 4-cü Avrasiya Forumuna ev sahibliyi etdi. Avropa və Asiyanın bir çox nüfuzlu qurumlarını təmsil edən nümayəndələrin iştirak etdiyi forumda bu sahədəki prioritetlər müzakirə edilib.

Azərbaycan müstəqillik qazandıqdan sonra müəyyən çətinliklərlə qarşılaşsa da, hazırda iqtisadi göstəricilərinə görə regionun aparıcı dövlətinə çevrilib. Bu barədə «Mühasiblərin və auditorların 4-cü Avrasiya» forumunda məlumat verilib. «Daxili nəzarət və risklərin idarə olunması» mövzusunda keçirilən iclasda bildirilib ki, son illər Azərbaycanda maliyyə sistemi daha da təkminləşdirilib, ən əsası isə daxili audit sistemi formalaşdırılıb. Bu da ölkədə maliyyə və iqtisadi inkişaf tempinə öz təsirini göstərib. Bundan başqa, bir sıra sahələrdə risk amillərinin azalması müşahidə olunmaqdadır.

Milli Məclisin Komitə Sədri, Azərbaycan İqtisadçılar İttifaqinin sədri Ziyad Səmədzadə: "Əgər bir dövlətdə, şirkətdə daxili nəzarət varsa, demək resurslardan səmərəli istifadəyə də imkan genişlənir. Dünya təcrübəsi də göstərir ki, daxili auditor varsa, qayda-qanun var, maaş yüksəkdir, elə firma var ki, nə uçot var, hesab var, sonra da görür ki, iflasa uğrayıb."

Dövlət Sosial Müdafiə Fondunun sədri Səlim Müslümov bildirmişdir ki, daxili audit idarəetmə nəzarətinin

tərkib hissəsi kimi digər nəzarət üsullarından daha fərqli olmaqla sistem daxilində geniş əhatə dairəsinə, mövcud ehtiyatların qiymətləndirilməsi imkanına malikdir. Bu xidmət həm də daxili nəzarət sisteminin əsas elementi kimi müntəzəm olaraq fəaliyyət göstərir.

Avropa Mühasiblər və Auditorlar Federasiyasının baş icraçı direktoru Federiko Diomeda da daxili nəzarət sisteminə baxışla bağlı öz təcrübəsini bölüşüb. Onun sözlərinə görə, daxili nəzarət təkcə böyük şirklətlərə deyil, eyni zamanda kiçik və orda sahibkarlığa da aiddir.

Auditorlar Palatasının sədri Vahid Novruzov Azərbaycanda auditin inkişaf konsepsiyasından və onun funksiyalarından danışıb.

Professional Maliyyə Menecerləri Assosiasiyasinin prezidenti Nuriyyə Novruzova: Beynəlxalq təcrübəni öyrənmək üçün fikir mübadiləsi aparılır. Maliyyə sahəsində çalışanların dünyaya inteqrasiyası, maarifləndirilməsi prioritetlərimizdəndir.

Tədbirdə Çin, İtaliya, Rumınya, Polşa və digər 11 ölkənin mühasibat və audit üzrə tanınmış təşkilatlarının nümayəndələri və yerli mütəxəssislər iştirak edib.

Müxtəlif dövlət və beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdiyi tədbirdə şəffaflığın artırılmasında daxili nəzarətin rolu və risklərin idarə olunması müzakirə olunub. Bildirilib ki, nəzarətə dair qanunların icra mexanizmlərinin təkmilləşdirilməsi vacibdir. Toplantıda müvafiq institusional mexanizmlərin fəaliyyət istiqamətlərinin












dəqiqləşdirilməsinə dair də fikir mübadiləsi aparılıb.
Azərbaycan İqtisadçılar İttifaqı, Auditorlar Palatası və Professional Maliyyə Menecerləri Assosiasiyasının birgə təşkil etdiyi forum 3 gün keçirildi. Açılış mərasimi Azərbaycan haqqında videoçarxın nümayiş etdirilməsi ilə başlayıb. Forumun açılış mərasimində Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik Ziyad Səmədzadə qonaqları salamlayaraq tədbirin əhəmiyyətindən, ölkəmizdə mühasibat və audit






sistemlərinin inkişafından danışıb.
Beynəlxalq təcrübəyə əsaslanaraq maliyyə sahəsində çalışan peşəkar mütəxəssislərin iş qabiliyyətinin artırılması, stimullaşdırılması, motivasiyası və statusunun artırılmasını vacib hesab edərək bu il ilk dəfə olaraq APFM tərəfindən Nominasiyalar təsis edilmiş







və Açılış mərasimində onları öz qaliblərinə təqdim etdilər. Böyük Britaniyanın Sertifikatlı Maliyyə Menecerləri İnstitutunun (ICFM/ICB Global) Baş İcraçı direktoru Qarri Karter bu forumu mühasiblərin və auditorların maarifləndirilməsində, peşəkar inkişafında bir töhfə kimi qiymətləndirərək mükafatları nominantlara təqdim etdi. Açılış mərasimi konsert proqramı ilə davam etdirildi.
Forum iştirakçıların və xarici qonaqların Şamaxı şəhərinə - Astrofizika Rəsədxanasına ekskursiya və qeyri-formal görüşlərlə başa çatdı.
Biz əminik ki, ölkəmizdə mütəmadi olaraq keçirilən bu Forum mütəxəssislərimizin peşəkar bilik və bacarıqlarının daha da təkmilləşdirilməsində, yüksək ixtisaslı maliyyəçilərin sayının artmasında böyük rol oynayacaq. Forumda fəal iştirakı ilə seçilən APFM üzvlərinə və əməkdaşlarına təşəkkür edirik!

## Forumda təqdim olunan nominasiyalar:

*"Maliyyəçi peşəsinin inkişafında verdiyi xüsusi töhfəyə görə"*

**Ziyad Səmədzadə** - Milli Məclisin İqtisadi siyasət komitəsinin sədri, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik
**Süleyman Qasımov** - ARDNŞ Vitse-prezidenti

*"İlin Auditoru"*

**Vahid Novruzov**- Azərbaycanın Auditorlar Palatasının Sədri

*"İlin Maliyyə Meneceri"*

**Mahir Məmmədov** - Azərsu ASC-nin Sədr müavini
**Lyubov Andropova** - AZAL QSC-nin Vitse -prezidenti

*"İlin Finansisti"*

**Maarif Nəcəfov** - ARDNŞ-nin Azəriqaz İstehsalat Birliyinin İqtisadiyyat və Uçot İdarəsinin Rəisi
**Elman Hüseynov** - Azərbaycan Respublikası Maliyyə Nazirlinin Tədris mərkəzinin direktoru
**Anar Mustafayev** - Azərbaycan Respublikası Rabitə Nazirliyinin BTRİB-nin baş mühasibi